# GÖYÇAY: HƏR SƏHƏRİ XOŞ GÜZARA AÇILAN ŞƏHƏR



**Son illər Göyçay rayonunda daha intensiv xarakter alan müasirləşmə tədbirləri təbii ki, iqtisadi yüksəlişlə yanaşı, ölkə rəhbərliyinin diqqət və qayğısının nəticəsidir. Təkcə rayon mərkəzində deyil, kəndlərdə də bunu hiss etmək mümkündür. Kəndlərin əksəriyyətinə qaz xətləri çəkilişlərinin uğurla başa çatdırılması və davam etdirilməsi, içməli su probleminin həlli, kəndlərarası yolların müasirləşməsi, sosial-mədəni tikililərin artması və digər uğurlu tədbirlər əhali tərəfindən razılıqla qarşılanmaqdadır. Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadənin yerlərdə sakinlərlə görüşləri zamanı bütün bu məsələlər müzakirə edilir, yeni təkliflər, istəklər formalaşır, ümumi rəylər perspektivləri yaranır. Eyni zamanda bu görüş və söhbətlərin hər birində sakinlər göstərilən qayğı və diqqətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlıq bildirirlər.**



Rayon rəhbərliyinin yenilikçi iş üslubu ölkədə özünəməxsus ad qazanmış Göyçay şəhərində daha çox hiss olunur. Gəzib görənlər bilir ki, bu şəhərin mərkəzi hissələri yaraşıqlı küçə və meydanlardan, park və bağlardan, qədim və müasir binalardan ibarətdir. İstər yaşayış, istərsə də inzibati-sosial tikililər şəhərə əlavə gözəllik verir. Ancaq ayrı-ayrı yerlərdə, tək-tək olsa da, ömrünü başa vurmuş köhnə binaların şəhərin ümumi ahəngini pozması da bir gerçəklikdir. Bu tikililərin sökülüb yenilənməsi o qədər də asan məsələ deyil. Hətta çox çətin və riskli işdir. Yoxsa uzun illər boyu bu haqda düşünən və tədbir görmək istəyən hər hansı bir rəhbər bəlkə də meydana çıxardı. Eləcə şəhər stadionunun, Əli Kərim adına parkın, yeraltı keçidin və digər sosial-mədəni obyektlərin yenidən qurulması, müasirləşdirilməsi kimi. Budur, Göyçay şəhərindəki həmin o müasirlik ansanblını pozan binaların əksəriyyəti artıq yoxdur. Bəzilərinin yerində Göyçaya yaraşan yeni obyektlər artıq istifadəyə verilmiş, başqa sökuntülərin ərazisində də məqsədyönlü tikinti işləri aparılır. Rayon rəhbərinin məsələyə belə xoşməramlı yanaşması investorları da həvəsləndirir, yeni-yeni quruculuq işlərinin təməli qoyulur. Bu olduqca vacib və əhəmiyyətli bir məsələdir.

Əlbəttə ki, bütün bu işlər şəhərdə rahatlıq və müasirləşmə tədbirlərinin miqyasını artırmaqla yanaşı, həm də sakinləri təəssübkeşlik baxımından xeyli qürurlandırır. Rayonda keçirilən 2019-cu ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaqda bu işlərlə yanaşı digər məsələlər barədə də geniş danışılmışdır. Yığıncaqda məruzə ilə çıxış edən Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə demişdir:

- 2019-cu ilin birinci rübündə Göyçay rayonunda da tikinti, quruculuq və abadlıq işlərinin sürətləndirilməsi, yeni istehsal, ticarət və xidmət obyektlərinin inşa edilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.

Rüb ərzində Göyçay rayonunda iqtisadiyyatın əsas sahələri üzrə istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi keçən ilin mücvafiq dövrünə nisbətən 1,3 % artaraq 48,9 milyon manat olmuşdur.

Rayonun sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 8,2 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir ki, bu da keçən ilin birinci rübünə nisbətən 3,7 milyon manat çoxdur. Birinci rübdə aqrar sahənin inkişaf etdirilməsi istiqamətində də müəyyən tədbirlər görülmüş, 1067 hektar sahədə yazlıq bitkilərin əkini aparılmışdır. 2019-cu ilin yanvar-mart ayları üzrə rayonda 123,5 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir.

Hesabat dövründə rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala bütün maliyyə mənbələrindən 2,3 milyon manat investisiya yönəldilmiş, tikinti təşkilatları tərəfindən 1,8 milyon manatlıq inşaat işləri görülmüşdür.

Hesabat dövründə əhalinin həyat səviyyəsi xeyli yaxşılaşmış, pərakəndə əmtəə dövriyyəsinin həcmi 2%, əhaliyə göstərilən pullu xidmətlərin həcmi 1,6% artmışdır.

Hesabat dövründə rayon ərazisində tikinti, abadlıq və quruculuq sahəsində xeyli işlər görülmüşdür. Əli Kərim adına parkda və Şəhidlər Xiyabanında əsaslı yenidən qurma işləri tam başa çatdırılmış, Şəhidlər Xiyabanında Xocalı faciəsi və 1918-ci ildə soyqırım zamanı həlak olanların xatirə abidələri ucaldılmışdır. Heydər Əliyev parkının ərazisində inşa edilən bayraq muzeyinin tikintisi başa çatdırılmışdır. Hesabat dövründə şəhər təsərrüfatının idarə edilməsinin təkmilləşdirilməsi, şəhərin təmiz və səliqəli saxlanılması, məişət tullantılarının vaxtında daşınması, küçə və məhəllələrdə sanitar-gigiyenik və ekoloji tələblərə əməl edilməsi istiqamətində xeyli işlər görülmüş, əvvəlki illərə nisbətən bu sahəyə cavabdeh olan müəssisə və təşkilat rəhbərlərinin fəaliyyəti müsbətə doğru dəyişmişdir.

Rayon əhalisinə kənd təsərrüfatı məhsullarının satışında lazımi qayda yaradılması üçün tədbirlər davam etdirilmiş, şəhərin Mehdi Hüseynzadə küçəsində kənd təsərrüfatı məhsullarının pərakəndə satış bazarının bütün ərazisinə alfalt örtüyü vurulmuş, burada həm alıcılar, həm də kənd təsərrüfatı məhsulları satanlar üçün normal şərait yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-ci il tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramında növbəti beş il ərzində Göyçay rayonunda qeyri-neft sektorunun, yol təsərrüfatı və nəqliyyatın inkişafı kommunal və rabitə xidmətlərinin yaxşılaşdırılması, meliorasiya və irriqasiya tədbirləri, əhalinin təhlükəsizliyinin qorunması, mənzil təsərrüfat və abadlıq-quruculuq işləri, sosial müdafiənin gücləndirilməsi və sosial infrastrukturun yaxşılaşdırılması ilə bağlı 16 tədbir müəyyənləşdirilmiş və onların icrasına başlanılmışdır. Rayon ərazisində yol infrastrukturun təkmilləşdirilməsi, kəndlərarası avtomobil yollarının tikintisi, yenidən qurulması və əsaslı təmiri istiqamətində tədbirlər davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin "Göyçay rayonunun Kürd-Şəhadət-Qarabağlar-İkinci Ərəbcəbirli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" sərəncamına uyğun olaraq ümumi uzunluğu 7,5 km olan yolda əsaslı təmir işlərinə başlamışdır. Hesabat dövründə məktəb və məktəbəqədər təhsil müəssisələrinin tikintisi və əsaslı təmiri istiqamətində müəyyən tədbirlər həyata keçirilmişdir. Dövlət Proqramına müvafiq olaraq Ləkçılpaq kənd 1 nömrəli 764 şagird yerlik tam orta məktəbin əsaslı təmiri üçün layihə smeta sənədləri hazırlanır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Göyçay şəhərində və Qarabaqqal kəndində 40 yerlik uşaq bağçaları inşa edilir. Rayonun Müskürlü kəndində 40 yerlik uşaq bağçası, tibb məntəqəsi, kitabxana, kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik və kənd bələdiyyəsi üçün otaqları əhatə edən inzibati binalar kompleksinin tikintisi davam etdirilir. Ölkə Prezidentinin tapşırığına əsasən Göyçay çayında sel və daşqın təhlükəsinin və qəza vəziyyətinin aradan qaldırılması məqsədi ilə ötən ilin avqust ayından başlamış tikinti işləri də davam etdirilir.

Ötən müddət ərzində çayın ötürücülük qabiliyyəti saniyədə 275 kub.m. olan yeni məcrasının torpaq işləri başa çatdırılmış, məcra boyu sel sularının istiqamətləndirilməsi və sürətinin azaldılması, yeni çay məcrasının üzlənməsi üçün beton işlərinə başlanılmışdır. Avtomobil körpüsünün tikinti işlərinin böyük hissəsi yerinə yetirilmişdir.

Layihə çərçivəsində kəndləri suvarma suyu ilə təmin edən səviyyə qaldıran qurğunun dayanıqlığının artırılması üçün tədbirlər görülmüşdür.

Rayon ərazisində məskunlaşmış məcburi köçkün ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlərin icrasına başlanılmış, kollec və peşə liseyinin yataqxanalarında məskunlaşmış ailələr üçün 80 mənzilli yaşayış binasının tikintisinə başlanılmışdır. Binanın cari ilin iyul ayında istifadəyə verilməsi nəzərdə tutulur. Məktəb, ictimai binalarda və uyğunlaşdırılmış tikililərdə yaşayan qaçqın ailələrin üçün də əlavə olaraq 2 ədəd yaşayış binasının inşa edilməsi üçün tədbirlər görülür...




**Yığıncaqda deyildiyi kimi görülmüş işlərlə yanaşı 2019-cu ilin birinci rübü üçün nəzərdə tutulmuş bəzi iqtisadi göstəricilər yerinə yetirilməmiş, bir sıra təşkilat rəhbərlərinin, iş adamlarının, yerli icra və bələdiyyə orqanlarının fəaliyyətində təşəbbüskarlıq, işə yaradıcı münasibət lazımi səviyyədə olmamış, yerli imkanlardan səmərəli istifadə edilməmişdir.**

**(ardı növbəti sayımızda)**

**Məzahir ƏHMƏDZADƏ**